# DOĞRU YOLUN SAHİBİ VƏ YOLÇUSU

*(Əvvəli ötən sayımızda)*

O, zabit şərəfini, məsuliyyətini dərindən dərk edirdi. Və bu şərəfi qoruyacaq potensial da var idi onda.

Odur ki, bu arzusunu həyat keçirmək üçün Rəşad Azərbaycan Respublikası Si-lahlı Qüvvələrinin Təlim Tədris Mərkəzinin leytenantlıq kursuna yazıldı. Rəşad hərb sənətinə daha dərindən yiyələnmək məqsədilə yorulmaq bilmədən, gecə-gündüz bilmədən çalışdı, oxudu, öyrəndi. O, inanırdı ki, kursu uğurla, qüsursuz şəkildə bitirə-cək və sevdiyi Azərbaycan zabiti adını qazancaq.

Və hər ümidin, arzunun, inamın sonu xoşbəxtliyə çevrildiyi kimi, bu zəhmətin sonu bəhrəsini verdi. Əsgər kimi xidmətə başlayan Rəşad Rəhimov kursu böyük zəhmətlə, iti zəka, bacarıq ilə və leytenant Rəşad Rəhimov kimi başa vurdu. Bu adı daşımağa haqq qazandı. Həmin gün Rəşadın ən sevincli günlərindən idi desəm, ya-nılmaram. O, özünü bu yolda tapdığı andan indikilərin baş verəcəyinə inanmışdı. Hərbçi olacağı günə, Müharibənin başlayacağı günə və Zəfər gününə... Hələlik Rə-şadın üç arzusundan biri gerçəkləşmişdi. Bəlkə də işğal altında inləyən torpaqları-mızın səmalarında dolanan Ulularımızın ruhları da inanırdı ki, Rəşad o iki arzunun da gerçəkləşməsinə nail olacaqdır. Çünki ən əvvəl bu fikri irəli sürən ruh Rəşadın daxilindəki, qəlbindəki ruh idi... Rəşadın Rəşadətli Ulularının ruhu idi...

Rəşad leytenant rütbəsi ilə bir müddət xidmət etdi. O, xidmətində qüsursuz idi. Xidmətinin hər günü Qarabağ döyüşlərini fikirləşirdi. Bu fikirlə alışıb-yanırdı. Və-tən uğrunda, torpaq uğrunda, qisas uğrunda alışıb yanırdı Rəşad... Valideynləri, ailə üzvləri ondan nigaran qalır, onun təxris gününü səbrsizliklə gözləyirdilər. Lakin Rə-şad ilk əvvəllərdən arzuladıqlarının həyata keçməsi gününün gəlməsi üçün xidmətini davam etdirməkdə idi. O, o gün üçün bu yerlərə gəlmişdi. Zabit şərəfi ilə torpaqla-rımız uğrunda vuruşmaq istəyirdi Rəşad. Qarabağda canını vermək, qanını tökmək xəyalı ilə çırpınırdı. Şuşanı azad görmək xəyalı ilə çırpınırdı qəlbi. Bu xəyal təəssüflər olsun ki, Rəşadın o vaxtki xidməti dövründə gerçəyə çevril-mədi. Rəşad bu günlərə tez gəlmişdi, lakin o günlərə gəlmək üçün, hələ çox çalışmaq lazım idi. Dəmir kimi qisas alovunda bişmək, isti-isti döyülmək lazım idi iti qılınc olmaq üçün. Və taybatay açılmış əlləri Allahdan başqa heç kəsin aça bilməyəcəyi dəmir yumruğa çevirmək lazım idi o günün gəlib çatması üçün.

Rəşadın hərbi xidməti davam etmədi və Rəşad ehtiyatda olan zabit kimi mülki həyatda fəaliyyətini davam etdirdi. Ancaq təəssüflənmədi, ürəyini sıxmadı, əl çəkmədi arzularından. Əksinə, o günə daha da yaxın olmaq üçün gücünü səfərbər etdi. O mənada ki o, özünü hər döyüşə hazır edirdi, fiziki cəhətdən hazırlanırdı. Qarabağda azadlıq müharibəsi başlayacağı halda onun gedəcəyi ilk məkan Hərbi Komissarlıq olacaqdı. O, belə fikirləşirdi və hər şeyi belə planlaşdırmışdı. Alacağı hər hansı imtina cavabından sonra da əl çəkməyəcəkdi məqsədindən və sonuna qə-dər Hərbi Komissarlıqdan tələbinin həyata keçməsini təkidlə tələb edəcəkdi.

Rəşad Rəhimov 2008-ci ildə hərbi xidmətini zabit kimi başa vurdu və 2010-cu ildə Hərbiləşdirilmiş Mühafizə İdarəsində, 2011-ci ildən isə “Azərpoçt” MMC-də çalışmağa başladı. Hərbi xidmətdə əsgər və zabit kimi qüsursuz xidmət edən Rəşad bir əsgərtək mülki işdə də vəzifələrini qüsursuz, dəqiq və layiqincə yerinə yetirirdi.

2016-cı ilin Aprelinin ilk günləri... Rəşad bəlkə də heç vaxt bu qədər həyəcan-lanmamışdı. Qarabağda döyüş gedirdi. Özü də sərt döyüşlər. Bu bir haqq-ədalət, azadlıq müharibəsinin xəbərçisi, qaranquşu idi. Rəşad özünü inandırırdı ki, bu mü-haribə tez bitməyəcək. Çünki tez bitən döyüşə səfərbərlik lazım deyildi. O isə səfər-bər olmaq istəyirdi.

Döyüşlərin başlandığı xəbərini eşidən Rəşad əvvəllərdən planlaşdırdığı kimi dər-hal Hərbi Komissarlığa doğru yol aldı.

Hərbi Komissarlığa çatıb səfərbər olunmasını istədi. O, özünü inandırırdı ki, onu hərbi xidmətə çağıracaqlar, inandırırdı ki, özü üçün gün bu gündür. O, bu gün döyü-şəcək, can verəcək, qan tökəcək.

Döyüş bitən günə qədər hər gün Hərbi Komissarlıqda gözlədi. İşçilər nə qədər dil tökdülərsə də, Rəşadı sakitləşdirə bilmədilər. Hər gün eyni ümidlə və arzu ilə Hərbi Komissarlıqda olurdu Rəşad.

Lakin sonuncu gün aldığı xəbərlə hər şeyi başa düşdü. Düşmən təxribatı nəticə-sində başlanan müqəddəs döyüş dörd gündən sonra başa çatmışdı. Bu dəfə istəyi həyata keçməsə də Rəşad ümidini itirməmişdi. Ümidini itirmək üçün doğulmamışdı Rəşad. Əksinə, ümid qazanmaq üçün doğulmuşdu. O, ümid üçün doğulmuşdu. Sa-baha inam üçün, qaranlığın uduzacağı aydın sabaha inam üçün gəlmişdi bu dünyaya Rəşad... O, bilirdi ki, torpaqlarımızın işğalda olması davam etdikcə o, rahat ola bil-məz. Nəhayət, Azərbaycan igidlərinin qəzəbi bir gün işğalçı ermənilərin başında şimşək kimi çaxacaq. Bilirdi ki, mütləq o gün gələcək və tez gələcək. Odur ki, yenə də gözləyəcəkdi Rəşad, dözəcəkdi...

Rəşad dözürdü... Hər şeyə rəğmən dözürdü... Müharibənin acılarına dəfələrlə şa-hid olmasına rəğmən... Hər atəşkəs pozuntusuna rəğmən... Hər atəşkəs pozuntusu nəticəsində şəhid olan vətən oğullarına rəğmən... Hər şəhid onun ürəyindən parça idi. Vətən bir şəhid verəndə onun ürəyindən bir parça ayrılırdı, elə bil. Və şəhidlərdən geri qalan acını canı-qanı ilə, ürək yanğısı ilə hiss edirdi.

Keçən hər gün hər bir Azərbaycan cəngavəri kimi Rəşadın da əlləri qisas hissi ilə sıxılaraq yumruğa çevrilirdi. O, atəşkəsin tez-tez pozulmasına alışmamışdı. Bu xəbəri eşitmək istəmirdi. Əlacı olsa, qollarına qanad taxardı, maneələrə baxmayaraq o, birbaşa düz Şuşaya uçardı. O inanırdı ki, atəşkəsi pozmaqla düşmən nə qədər həd-dini aşırsa da aşsın, onsuz da onların ilan başının əziləcəyi gün gələcəkdi.

Lakin qəflətən eşitdiyi və ildırım kimi vücudunu lərzəyə salan bir acı xəbəri heç qəbul edə bilmirdi Rəşad. 2020-ci ilin iyul ayı Tovuz rayonunda şiddətli döyüşlər baş verdi. Bu döyüşlər zamanı general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev də olmaqla zabit-əsgər heyəti qəhrəmancasına Şəhidlik Zirvəsinə yüksəl-di.

Rəşad indiyə qədər döyüş meydanında generalın şəhid olmasını görməmişdi və belə bir hadisə barəsində eşitməmişdi. Bu, Azərbaycanın hərb tarixində ağırdan ağır itki idi. Və bu itki Qarabağ münaqişəsini dəyişəcək bir müharibəni zəruri edirdi. Bu ağır itki Azərbaycanın oyanışını, bir yumruq kimi birləşməsini və nəhayət, dəmir yumruğa çevrilib düşmənin başına endirilməsini zəruri edirdi. Rəşad artıq fikrindən dönmürdü. Ürəyindən keçənləri ürəyində saxlamırdı. Fikirlərini beynindəki qəfəsdə saxlamırdı. O, qərarında qəti idi. Artıq qisasın vaxtı gəlirdi! Düşmənin başının əziləcəyi vaxt gəlib yetişirdi!

Rəşad bilirdi ki, indidən belə görəcəkləri xəyal olmayacaqdı, gerçək



olacaqdı. Vətən Müharibəsi başlayacaqdı!

Ali Baş Komandan Tovuz hadisələrindən sonra Azərbaycan xalqına müraciət-çağırış etdi. Ehtiyatda olan zabit, leytenant Rəşad Rəhimov səfərbərlik üçün qey-diyyatdan keçmək məqsədilə hamıdan birinci olaraq Hərbi Komissarlığa yollandı. Komissarlıqda artıq çoxdan Rəşadı tanıyan əməkdaşlar onu sevindirmək istəyirdilər. Rəşad əməkdaşlara ümid verirdi, işçilər də Rəşadın ümidini doğrultmağa çalışırdı-lar, istəyirdilər ki, səfərbərlik barədə ona şad xəbər versinlər. Müharibə özü ilə nə qədər ölüm-itim, ayrılıq gətirsə də yenə də onlar onun üzünü güldürmək istəyirdilər. İstəmirdilər ki, 4 il əvvəl Aprel döyüşləri zamanı səfərbərliklə əlaqədar olan vəziyyət təkrarlansın.

Rəşad öz vəzifələrini əzəldən bilirdi, indi öz içində bu vəzifələrin təlimini keçirdi, sanki. Yuxularında məhv etdiyi düşmənin sayın-hesabın itirmişdi. Ağlının kəsdiyi 30 ilin hər günü Şuşanı fəth edirdi. Bir gün at belində, bir gün tank üstündə, bir gün qı-lıncla, bir gün avtomatla və yaxud da əlbəyaxa. Rəşad bunları yuxu olaraq görməkdən bezmişdi. Yeni gerçəkliyin, yeni reallığın vaxtı gəlirdi.

Onun gözlədiyi gün gəlirdi. Hərbi Komissarlıqdan gələn müsbət cavabla Rəşad bundan sonra yenidən hərbi xidmətdə olduğu kimi idi! Rəşad bu günü 4 il arzula-mışdı. Gözü Qarabağdan başqa heç bir yeri , heç nəyi görmürdü. Könüllü zabit olan, könüllü yenidən hərbi xidmətə yollanan Rəşad yeni müharibənin Zəfər çalan döyüşçüsü, yeni reallığın memarı olacaqdı!

Bir neçə günlük təlimlərdən sonra, axır ki, o gün gəldi-çatdı. Qaçqınların 30 il, Azərbaycanın 200 il gözlədiyi gün... İllərə dəyən, min aya dəyən o gün – 27 Sentyabr günü gəldi-çatdı. İllərdir, yüz illərdir bu günü Azərbaycanda gözləməyən yox idi. İyul döyüşlərindən başlayaraq daha həyəcanla o günü gözləyən Azərbaycan xalqı bilirdi ki, o gün indi daha tez gələcək. Tez də gəldi.

Bu günü Rəşad da öz yaşadığı ömür payında çox gözləmişdi. Bunsuz yatdığı hər gecənin yuxusu onun üçün 27 sentyabr idi. O, müharibə başlayan dəqiqələrdə öz-

özü ilə danışırdı: “Rəşad, axır ki, çoxdan gözlədiyin o gün gəldi! Bacardıq, Rəşad! İnamımızla, imanımızla, əməyimizlə bu günlərə gəldik. Xəyanətimizlə yox, dəyanə-timizlə, əzmimizlə, dözümümüzlə gəldik bu günlərə! Allah bu müharibədən alnıa-çıq, üzüağ çıxmağı xalqıma, millətimə, müzəffər orduma nəsib etsin! Amin!”

Daxilində özünün özü ilə etdiyi bu söhbətdən sonra Rəşad döyüş meydanına yeri-di. Onu döyüşəcəyi ilk və son müharibə - Vətən müharibəsi gözləyirdi. Fürsət Rəşa-dın, silah Rəşadın, vəzifə Rəşadın, müqəddəs yol Rəşadın idi. Meydan onun və onun əsgərlər yoldaşlarının idi. Bu torpaqlarda bir düşmən belə qalmamalı idi, qalmayacaq-dı da.

Rəşad üçün Vətən müharibəsi toybayram idi. Elə bil ki, toya-bayrama gedirdi. Təbii ki, onun xəyalında qurduğu şənlik, toy mağarı ordumuz şəhid verəndə dağılır-dı. Və o zaman qisas ocağı yenə çatılırdı. Rəşad üçün düşmənlərə qarşı vuruşmaq heç çətin deyildi. Düşmənlərə qarşı fəndlər, taktikalar işlətmək, güllə atmadan onları zərərsizləşdirmək Rəşad və onun əsgərləri üçün çox asan idi. Rəşad, sanki, neçə-neçə müharibələr görmüş sərkərdə kimi savaşırdı Vətən müharibəsində. Ötən hər döyüş Rəşadı amalına daha da yaxınlaşdırırdı. Bu döyüşlər, bu mübarizəli Mübarizli günlər onun üçün hər şey idi. Yaşadığı 35 illik ömrünün günü idi. Və bu günlərin gəlib yetişməsi üçün 30 il gözləməyə dəyərdi. Ailəsi ondan səbirsizliklə xəbər gözləyirdi. Nigarançılıq və narahatlıq yenə də var idi, necə ki Rəşad əsgərliyə gedəndə ondan nigaran qalırdılar, yenə də ondan fərqli, lakin elə idi. Anası hər dəfə dəstəyi qaldıranda əlləri əsirdi, qorxurdu ki, zəng vuran Rəşad olmaz, onun komandiri olar və qara xəbər gələr...

Zənglər zamanı söhbət edərkən Rəşadın danışığındakı ümid isə ailəni qürurlan-dırır, cuşa gətirirdi:

– Narahat olmayın, hər şey yaxşı olacaq. Yaralanmağı düşünmək məcburiyyə-tindəyəm, müharibədir, hər şey ola bilər, lakin hələlik salamatlıqdır. Ancaq döyüş bitənə qədər xəstəxanada qalmaq əsla. Qarabağa nəfəs qədər yaxınıq, anacan! Heç bu qədər yaxın olmamışdıq! Səsimiz Zəfər bayrağı sancılan yerdən gələcək, inan! Zəfər bayrağını sancmamış sakitləşən deyiləm! Şuşanı azad etməmiş döyüş meyda-nını tərk edən deyiləm. Müharibədir, hər şey olacaq, amma hər şey yaxşı olacaq, İnşəAllah...

*(Davamı var)*

***Sevindik* Nəsiboğlu**
***8-ci sinif şagirdi,***
***şair-publisist, AJB-nin üzvü***